*Uşaq ədəbiyyatı xəzinəsindən*



# RAFİQ YUSİFOĞLU

*Biblioqrafiya*

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

*Uşaq ədəbiyyatı xəzinəsindən*

# Rafiq Yusifoğlu

(Əliyev Rafiq Yusif oğlu)

***Biblioqrafiya***

**Bakı-2022**

**KBT:** Я19:Ш+Ш5(2=Аз)7-44я1
**UOT:** 016:821.512.162

**Tərtibçilər:** **Nazilə Tahirova,**
*Əməkdar mədəniyyət işçisi*
**Tünzalə Əzizova**
**Leyla Qafarova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **İsa Həbibbəyli,**
*AMEA-nın prezidenti, akademik*

**Rafiq Yusifoğlu:** biblioqrafiya / tərt. ed. N.Tahirova, T. Əzizova, L. Qafarova; ixt. red. və bur. məs. Ş. Qəmbərova; red. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2022.- 520 s.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun həyat və yaradıcılığına həsr olunmuş bu biblioqrafiyada görkəmli şairin qələmə aldığı bütün əsərləri və onun haqqında yazılan materiallar öz əksini tapmışdır. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 554 11 3

© F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022

## Tərtibçidən

Görkəmli şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu olduqca istedadlı və məhsuldar bir qələm sahibidir. 1966-cı ildən imzası mətbuatda görünən Rafiq Yusifoğlunun indiyədək 85-ə yaxın kitabı, mətbuatda çoxlu şeirləri, hekayələri, məqalələri çap olunub.

Bu fədakar, zəhmətkeş qələm sahibinin yaradıcılığı haqqında da mətbuatda xeyli məqalə, resenziya işıq üzü görüb. Orta məktəb dərsliklərinə Rafiq müəllimin xeyli şeirləri, hekayələri, nağılları salınıb. İlk dəfə məktəbə qədəm qoyan Azərbaycan balaları görkəmli uşaq yazıçılarımızdan Abdulla Şaiqin, Abbas Səhhətin, Mirzə Ələkbər Sabirin və başqalarının əsərləri ilə bərabər, Rafiq Yusifoğlunun şeirlərini də oxuyub əzbərləyir.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları tərəfindən tərtib olunan və ədibin ədəbi-ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu fundamental biblioqrafik göstərici 1966-2021-ci illərdə dərc olunan materialları əhatə edir.

Göstərici 4 hissədən ibarətdir:

I hissə - Rafiq Yusifoğlunun əsərləri;

II hissə - Rafiq Yusifoğlu haqqında;

III hissə - Xarici dillərdə;

IV hissə - Köməkçi göstəricilər.

Göstəricidə "Rafiq Yusifoğlunun ədəbiyyat, elm, sənət haqqında fikir və mülahizələri", "Elm və mədəniyyət xadimləri Rafiq Yusifoğlu haqqında", "Rafiq Yusifoğlu elm və mədəniyyət xadimləri haqqında" adlı bölmələrdə verilmiş materialların müxtəlif oxucu qruplarının marağına səbəb olacağı da şübhəsizdir.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə kitabın sonunda Rafiq Yusifoğlunun əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi verilmişdir.





Biblioqrafik göstərici geniş oxucu kütləsi – tələbələr, tədqiqatçı-alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur.

Yəqin ki, göstəricidə müəyyən çatışmazlıqlar da vardır. Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssis və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və iradlarını, rəylərini Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** Bakı şəh., S.Vurgun küç. 88;

**E-mail:** info@clb.az.

# Çoxcəhətli bədii yaradıcılıq, plyus ədəbiyyatşünaslıq

Azərbaycan ədəbi və elmi fikrində çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olmaq ənənəsi həm ədəbiyyatın və həm də elmin xeyrinə olmuşdur. Bu istiqamətlərdən biri digəri üçün donor funksiyasını həyata keçirmiş və onu tamamlamışdır. Ədəbiyyat tarixindən və elmi fikrimizin keçdiyi inkişaf yolundan bu fakta dair çoxsaylı misallar gətirmək mümkündür. Hazırda da ədəbi-elmi mühitimizdə həmin proses davam etməkdə, ədəbiyyatımızı və elmimizi zənginləşdirməkdədir. Fəaliyyətində bədii yaradıcılıqla elmi tədqiqatçılıq işini üzvi şəkildə əlaqələndirən yaradıcı şəxsiyyətlərdən biri də tanınmış şair və ədəbiyyatşünas Rafiq Yusifoğludur. Elmi-ədəbi ictimaiyyətimizin ilk növbədə istedadlı şair kimi qəbul etdiyi Rafiq Yusifoğlu həm də zəhmətkeş bir tədqiqatçı və tərcüməçidir. Rafiq Yusifoğlunun simasında şairlik, tədqiqatçılıq, tərcüməçilik və publisistika paralel dünyalar kimi dinc və yanaşı yaşamaqda, ədəbiyyatımıza və elmimizə fayda verməkdə davam edir.

Əlbəttə, Rafiq Yusifoğlu hər şeydən əvvəl, tanınmış və istedadlı şairdir. O, Azərbaycan ədəbiyyatının son yarım əsrlik inkişafı yollarında vətənpərvər bir şair kimi yorulmadan çalışmaqdadır. Rafiq Yusifoğlu Azərbaycan vətənpərvərlik poeziyasının əsas yaradıcılarından biridir. Bütün fəaliyyəti dövründə ardıcıl olaraq həm də orta və ali məktəblərdə müəllim kimi çalışması onun yaradıcılığında vətənpərvərlik ideyalarının geniş yer tutmasına şərait yaratmışdır. Rafiq Yusifoğlunun vətənpərvərlik lirikası müəllim-şairin mənsub olduğu xalqa, xüsusən yeni nəsillərə mənalı və düşündürücü poetik xitabıdır. O, şeirlərində yalnız vətənpərvərlik duyğularını ümumi şəkildə tərənnüm etməklə qalmayaraq, vətənə məhəbbət anlayışının üzvi tərkib hissələri olan ölkə, ana təbiət, milli-mənəvi dəyərlər, adət-ənənələr, igidlik və qəhrəmanlıq kimi





motivlərin poeziya vasitəsilə oxuculara aşılanmasına uğurla xidmət edir. "Yurdum-yuvam" adlı şeir kitabı ilə 1983-cü ildə ədəbiyyatda ilk addımlarını atan şairin yaradıcılığında Vətən mövzusu ən aparıcı motivə çevrilmişdir. Adlarından göründüyü kimi "Ocaq yeri" (1989), "Aylı cığır" (1992), "Qəm karvanı" (1997), "Həsrət köçü" (1998), "Təzə sevdalara doğru" (2000), "Xatirə kəcavəsi" (1999), "Ayrılığın qəm hasarı" (2002), "Bir sevdalı ürəyim var" (2003), "Həsrət sazağı" (2005), "Dəniz səviyyəsi" (2005), "Sevdalı sabahlar" (2007), "Eşqin qarlı yollarında" (2008), "Dəniz, sən və mən" (2009), "Çiçək yağışı" (2009), "Könül səltənəti" (2012), "Qızılı məktublar" (2013), "Tapmacalar ölkəsi" (2013), "Arzular kəhkəşanı" (2015), "Sabahın sorağında" (2016), "Bulud fayton" (2017), "Üçüncü qərinə" (2017), "Nağıl qapısı" (2018), "Sevdalı ömür yaşadım" (2019), "Taleyimdən keçən yollar" (2019), "Cəh-cəh" (2020), "Zəfər dastanı" (2021), "Xiffət" (2021) və sair şeir, hekayə və publisistika kitablarının baş mövzusu Azərbaycandır. Bu mənada Rafiq Yusifoğlunun şeirləri Azərbaycan poeziyasının vətənpərvərlik dərsləridir. O, doğma ana vətənin mənalı poetik salnaməsini yaratmışdır. Rafiq Yusifoğlunun vətənpərvərlik lirikası ümummilli ideyaların və doğma vətən torpağının poetik tərənnümünün bədii ifadəsindən ibarət olan mükəmməl ictimai lirika nümunələridir. Rafiq Yusifoğlunun Vətən şeirləri böyüklər üçün olduğu qədər uşaqlar üçün də sadə, mənalı və anlaşıqlıdır:

Bu ölkə bizim ölkə,
Bu vətən bizim vətən!
Qürbət eldə ən şirin
Söhbətim, sözüm Vətən!

…Selin damarımda qan,
Yelin ciyərimdə can,
Sənə gərəksə qurban
Olaram özüm, Vətən!

Göylərində bir quşam,
Hüsnünə vurulmuşam.
Sənsiz bir qara daşam,
Ay canım, gözüm Vətən!

Bundan başqa, Rafiq Yusifoğlunun vətənpərvərlik şeirləri təbiiliyi və dərin səmimiyyəti ilə səciyyələnən qiymətli obrazlı poetik örnəklərdir. Şairin vətənpərvərlik mövzusunda yazdığı şeirlər bir-birini təkrar etməyən orijinal bədii nümunələrdir. Rafiq Yusifoğlu Azərbaycan vətənpərvərlik poeziyasının geniş və böyük, fərqli və təkrarsız mənzərələrini yaratmışdır. Məsələn, "Dağlar, dərələr" şeiri Azərbaycan şeirində çox müraciət edilmiş bu mövzuda yeni poetik sözdür:

…Gözəllik xətrinə hər yan dağılıb,
Biri dikələndə, o biri çöküb…
Dərə hesabına dağlar dağ olub,
Dağın əzabını dərələr çəkib.

…Ucadan hər tərəf gözəl görünür,
Dağların başında ildırım çaxır,
Dərədən zirvəyə duman sürünür,
Zirvədən dərəyə bulaqlar axır.

Uçmağa yer gəzir köçəri quşlar,
Şimşəklər buludu doğrayır, biçir.
Dağların başına yağan yağışlar
Bütün dərələrin qoynundan keçir.

Son illərdə Rafiq Yusifoğlunun Qarabağ mövzusunda yazılmış ilhamlı şeirləri Azərbaycan poeziyasının qəhrəmanlıq notları kimi mühüm əhəmiyyətə malikdir. Qubadlıda doğma ata ocağını itirmiş şairin yurd həsrəti şeirləri təsirli qəlb çırpıntılarının təbii poetik ifadəsindən yoğrulmuşdur. Qarabağın işğaldan azad edil-





məsi, tarixi Zəfərin qazanılması haqqında da poeziyamızda ən yaddaqalan şeirlərin sırasında Rafiq Yusifoğlunun poetik örnəklərinin də özünəməxsus yeri vardır. Çap etdirdiyi "Zəfər dastanı" kitabı Rafiq Yusifoğlunun mənzum Qarabağnaməsidir.

Rafiq Yusifoğlunun dərin səmimiyyəti və incə lirizmi ilə səciyyələnən şeirləri axıcı və oxunaqlıdır. Şeirlərinə çoxlu sayda mahnılar yazılması da yaradıcılığındakı lirizmin mühüm göstəricisidir.

Rafiq Yusifoğlunun həyatı və fəaliyyəti uşaq mətbuatı və ədəbiyyatı ilə üzvi şəkildə əlaqədardır. Azərbaycan uşaq ədəbiyyatının inkişafında Rafiq Yusifoğlu imzası ilə çap edilən şeirlər və poemalar xüsusi bir poeziya çələngi təşkil edir. Onun uşaq şeirləri müəllim – şairin tərbiyəvi düşüncələrinin, yeni nəsillərin ideya-mənəvi təkamülü ilə bağlı arzularının orijinal poetik tərənnümündən ibarətdir. Rafiq Yusifoğlu şeirlərinin uşaq və gənclərə daha doğma olması, onların qəlbinə və yaddaşına asanlıqla həkk edilməsi baxımından mövzunun seçilməsinə, yığcamlığa, şeir dilinin sadəliyinə və ahəngdarlığına xüsusi fikir verdiyi üçün dillər əzbərinə çevrilən poetik örnəkləri meydana qoya bilmişdir. Rafiq Yusifoğlunun uşaqlar üçün yazdığı ən yaxşı şeirlər Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur.

Azərbaycan uşaq mətbuatının inkişafında da Rafiq Yusifoğlunun mühüm xidmətləri vardır. Ölkəmizin uşaq mətbuatının öndə gedən nümunələrindən biri olan "Göyərçin" jurnalının son qırx ilə yaxın bir mərhələsindəki təkamülü və inkişafı Rafiq Yusifoğlunun adı və fəaliyyəti ilə üzvi surətdə bağlıdır. O, 1985-ci ildən bu günə qədər fasiləsiz olaraq "Göyərçin" jurnalında müxtəlif vəzifələrdə fəaliyyətini davam etdirməkdədir. Harada çalışıb-işləməsindən asılı olmayaraq, Rafiq Yusifoğlu üçün "Göyərçin" jurnalının uşaqların ideya-mənəvi inkişafına xidmət etmək missiyasını layiqli şəkildə həyata keçirməsi onun üçün əsas vəzifə olmuşdur. Rafiq Yusifoğlu Azərbaycan uşaq ədəbiyyatı və mətbuatının "Göyərçin" məktəbinin yaradıcısıdır. "Göyərçin" jurnalında şöbə müdirliyindən məsul katibliyə və baş redaktorluğa qədər keçdiyi

şərəfli və məsuliyyətli yol həm də Azərbaycan uşaq ədəbiyyatının inkişafının Rafiq Yusifoğlu mərhələsidir.

Rafiq Yusifoğlu bədii yaradıcılıqla elmi fəaliyyəti paralel şəkildə davam etdirir. O, ədəbiyyatşünaslıq elmi sahəsində də məsuliyyətli və şərəfli yol keçmişdir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil alan Rafiq Yusif oğlu Əliyev 1984-cü ildə "Azərbaycan poemasının inkişafı problemləri" mövzunda namizədlik, 2006-cı ildə isə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri"nə həsr edilmiş doktorluq dissertasiyası müdafiə etmişdir. Rafiq Yusifoğlu Azərbaycan ədəbiyyatşünaslıq elmində, necə deyərlər, poemaşünas alim kimi tanınır. Azərbaycan ədəbiyyatında poemanın tarixi təkamülü, mövzu-ideya, janr-üslub və sənətkarlıq xüsusiyyətlərinin dərindən və əsaslı şəkildə tədqiqi Rafiq Yusifoğlunun ədəbiyyatşünaslıq elmi sahəsindəki xidmətidir. Elmi rəhbərlik və rəsmi opponentlik vasitəsilə də o, yeni nəsil ədəbiyyatşünasların formalaşması və inkişafına öz töhfələrini verir. Uzun illər Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, hazırda isə Folklor İnstitutunun Dissertasiya şurasının və Sumqayıt Dövlət Universiteti elmi şurasının üzvi kimi filologiya elmləri doktoru, professor Rafiq Yusif oğlu Əliyev ölkəmizdə elmi-ədəbi və pedaqoji-maarifçi mühitin inkişafına şərəflə xidmət göstərir.

Uzun illərdən bəri ali məktəblərdə dərs deməkdə davam edən professor Rafiq Yusifoğlunun filologiya fakültələrinin tələbələri üçün yazıb nəşr etdirdiyi "Ədəbiyyatşünaslığın əsasları", "Uşaq ədəbiyyatı", "Müasir ədəbi proses və ədəbi tənqid", "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" dərslikləri yeni nəsil müəllimlərin və ədəbiyyatşünasların formalaşdırılmasına öz töhfələrini verir. "Ədəbiyyatşünaslığın əsasları" eyniadlı fənnə dair müstəqillik illərində meydana çıxan ilk və gərəkli dərsliklərdən biri kimi ali məktəblərdə bu boşluğu doldura bilən əhəmiyyətli tədris-metodiki ədəbiyyat nümunəsidir. Onun "Uşaq ədəbiyyatı" dərsliyi də bu adda mövcud olan azsaylı dərsliklər içərisində seçilən kitabdır. Rafiq Yusifoğlunun özünün də uşaq şairi olması və müəllimlik





etməsi onun "Uşaq ədəbiyyatı" dərsliyində ədəbiyyatın bu qolunun mahiyyəti və vəzifələrinin, inkişaf yolu və istiqamətlər, habelə əsas simalarının daha əhatəli şəkildə və obyektiv təqdim edilməsinə şərait yaratmışdır. "Müasir ədəbi proses və ədəbi tənqid" adlı dərs vəsaiti isə Rafiq Yusifoğlunun özünün seçmə kurs kimi müəyyən etdiyi fənnin yeganə dərs vəsaitidir. Bu dərs vəsaitindən respublikamızda müasir ədəbi prosesdən və ədəbi tənqiddən seçmə fənlərin tədris olunduğu digər ali məktəblərdə də istifadə oluna bilər. Bütövlükdə isə bu kitablar Rafiq Yusifoğlunun müstəqillik dövründə ali məktəb dərslikləri yaratmaq sahəsindəki xidmətlərinin göstəricisidir.

Bundan başqa, Rafiq müəllim orta məktəblər üçün də yeni dərsliklərin hazırlamasında yaxından iştirak edir. Onun 2009-cu ildə birinci sinif şagirdləri üçün çap etdirdiyi "Ana dili" ("Əlifba") adlı oxu kitabından məktəblərdə dərslik kimi istifadə olunur. Bundan başqa, Rafiq Yusifoğlunun 2019-cu ildə nəşr etdirdiyi 2 cildlik "Yaddaş kitabı" orta və ali məktəblərdə istifadə olunan uşaq poeziyası antologiyası kimi şagirdlər və tələbələr üçün faydalı istinad mənbəyidir.

Göründüyü kimi, Rafiq Yusifoğlu çoxcəhətli yaradıcılıq fəaliyyətə malik olub, bədii yaradıcılıqla elmi tədqiqatçılıq işini və pedaqoji fəaliyyəti özündə birləşdirən və bu istiqamətlərin hər birində səmərəli şəkildə xidmət göstərən tanınmış yaradıcı simadır. Rafiq Yusifoğlunun keçdiyi şərəfli yol, əldə etdiyi mühüm nailiyyətlər ədəbiyyat işinə və elmə xidmətin bariz nümunəsidir. Oxuculara təqdim edilən Rafiq Yusifoğlunun həyatı və ədəbi-elmi fəaliyyətinə həsr olunmuş "Biblioqrafiya" onun mənalı tərcümeyi-halının və çoxcəhətli yaradıcılıq yolunun zəngin və qiymətli bir salnaməsidir. Təqdim edilən "Biblioqrafiya" həm Rafiq Yusifoğlunun ömür və sənət yoluna və həm də ədəbiyyatımızın və elmimizin yarım əsrdən artıq bir dövrdəki inkişafına, ən başlıcası isə sabahına bələdçilik edə biləcəkdir.

**İsa Həbibbəyli,**
*AMEA-nın prezidenti, akademik*

## Rafiq Yusifoğlunun həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri

**1950, 2 yanvar** - Azərbaycan Respublikası Qubadlı rayonunun Çardaxlı kəndində müəllim ailəsində anadan olmuşdur.

**1956-1963** - Çardaxlı kənd məktəbində oxumuşdur.

**1964-1966** - Qubadlıda orta məktəbdə təhsil almışdır.

**1966-1970** - Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə qəbul olmuşdur.

**1969** - Bakıdakı 211№li məktəbdə göstərdiyi fəaliyyətə görə V.İ.Lenin adına APİ-nin Komsomol Komitəsi tərəfindən fəxri fərmanla təltif olunmuşdur.

**1970** - Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib orta məktəbdə dil və ədəbiyyat müəllimi ixtisasına sahib olmuşdur.
- Sumqayıtdakı 1№li Tikinti Trestinin 5№li fəhlə yataqxanasında tərbiyəçi müəllim kimi əmək fəaliyyətinə başlamışdır (23 oktyabr).

**1971, 1 sentyabr** - Sumqayıt şəhərindəki 10№li məktəbə dil - ədəbiyyat müəllimi vəzifəsinə təyin edilmişdir.





- Yerevan şəhərinə hərbi qulluğa göndərilmişdir (22 noyabr).

**1972, 25 noyabr** - Hərbi qulluğu bitirdikdən sonra Sumqayıt şəhərindəki 10№li məktəbdə müəllimlik fəaliyyətini davam etdirmişdir.

**1973, 1 sentyabr** - Sumqayıt şəhərindəki 23№li məktəbdə müəllim işləməyə başlamışdır.

**1978-1982** - Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olmuşdur.

**1980** - İnşaatçılarla yaradıcılıq görüşünə görə Şamxor Su Elektrik Stansiyasının rəhbərliyi tərəfindən fəxri fərmanla təltif edilmişdir.

**1982** - Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını əla qiymətlərlə bitirmişdir.
- Uşaq və gənclər ədəbiyyatı tənqidçilərinin Moskvada keçirilən birinci Ümumittifaq seminarında iştirak etmişdir.

**1984** - "XX əsr Azərbaycan sovet poemasının inkişaf problemləri" (1956-1965) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Filologiya elmləri namizədi adı verilmişdir.

**1985** - "Göyərçin" jurnalının redaksiyasına şöbə müdiri vəzifəsinə təyin edilmişdir (18 fevral).

| | |
|---|---|
| **1986** | **-** Moskvada Ali Komsomol Məktəbinin bir aylıq jurnalistika kursunun müdavimi olmuşdur.<br>- Uşaq və gənclər ədəbiyyatı tənqidçilərinin Moskvada keçirilən ikinci Ümumittifaq seminarında iştirak etmişdir. |
| **1987** | - Azərbaycan LKGİ MK-nın fəxri fərmanı ilə təltif olunmuşdur.<br>- SSRİ Yazıçılar İttifaqına üzv qəbul olunmuşdur.<br>- Respublika mətbuatında gənclər problemlərinin işıqlandırılmasında fəal işinə görə Azərbaycan LKGİ MK-nın katibliyi tərəfindən fəxri fərmanla təltif olunub. |
| **1988** | - Uşaq və gənclər ədəbiyyatı tənqidçilərinin Moskvada keçirilən üçüncü Ümumittifaq seminarında iştirak etmişdir. |
| **1989** | - "Ətirli düymələr" kitabına görə Azərbaycan Mətbuat Komitəsi, Azərbaycan Yazıçılar İttifaqı və Azərbaycan Gənclər İttifaqı Mərkəzi Komitəsi tərəfindən "İlin ən yaxşı kitabı" mükafatına layiq görülmüşdür.<br>- Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin iştirakçısı olmuşdur. |
| **1992, 1 mart** | - "Göyərçin" jurnalının məsul katibi vəzifəsinə təyin edilmişdir. |
| **1993** | - Sumqayıt Pedaqoji Seminariyasında "Uşaq ədəbiyyatı"ndan mühazirələr oxumuşdur. |





| | |
|---|---|
| **1996, 10 sentyabr** | - Azərbaycan Dövlət Televiziyasının Xəbərlər baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. |
| **1997, 15 may** | - Azərbaycan Gənclər İttifaqı Ali Məclisinin 11-5№li qərarına əsasən, "Göyərçin" jurnalının baş redaktoru vəzifəsinə təyin edilmişdir.<br>- Azərbaycan Yazıçılar Birliyi Qəbul Komissiyasının üzvü seçilmişdir (noyabr). |
| **1998, 20 fevral** | - Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Vətən" fəxri diplomu ilə təltif edilmişdir. |
| **2000** | - Azərbaycan Jurnalist Həmkarlar İttifaqı Rəyasət Heyətinin fərmanı ilə ona "Qızıl qələm" mükafatı verilmiş və "Kəmaliyyə diplomu" təqdim edilmişdir (8 yanvar).<br>- Azərbaycan Yazıçılar Birliyinin ən yaxşı uşaq ədəbiyyatına görə təsis etdiyi "Tofiq Mahmud" ədəbi mükafatına layiq görülmüşdür.<br>- Azərbaycan Yazıçılar Birliyi Sumqayıt şəhər şöbəsi, Respublika "Sevil" Qadınlar Məclisinin Sumqayıt şəhər şöbəsi və Respublika Uşaq Fondu Sumqayıt şəhər şöbəsinin diplomu ilə təltif edilmişdir (29 sentyabr). |
| **2001, 26 sentyabr** | - Azərbaycan Jurnalist Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə ona "Araz" Ali Ədəbi Mükafatı verilmiş və "Laureat diplomu" təqdim edilmişdir. |

**2000, 1 sentyabr** - Sumqayıt Dövlət Universitetinin filologiya fakültəsində ixtisas kurslarından mühazirələr oxumağa başlamışdır.

**2004, 4 iyun** - Azərbaycan Yazıçılar Birliyinin İctimai qurumlarla Əlaqə və Analitik İnformasiya Mərkəzinin üzvü seçilmişdir.

**2005** - Azərbaycan mətbuatının inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 iyul 2005-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

**2006** - Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 4 iyul 2006-cı il tarixli (protokol №22-k) qərarı ilə ona Azərbaycan ədəbiyyatı kafedrası üzrə dosent elmi adı verilmişdir.
- AMEA Nizami adına Ədəbiyyat İnstitutu nəzdindəki ixtisaslaşmış müdafiə şurasında "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (11 oktyabr).

**2007** - Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının 30 mart 2007-ci il tarixli qərarı ilə (protokol №6-R) ona filologiya elmləri doktoru alimlik dərəcəsi verilmişdir.

**2008, 31 yanvar** - Sumqayıt Dövlət Universitetinin professoru seçilmiş, eyni zamanda sentyabr





ayından ADPU-da dərs deməyə başlamışdır.

**2010** - Azərbaycan Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanı ilə təltif olunmuşdur.

**2011** - Ali Attestasiya Komissiyasının qərarı ilə AMEA Nizami adına Ədəbiyyat İnstitutu nəzdindəki Azərbaycan ədəbiyyatı, Türk xalqları ədəbiyyatı, Ədəbiyyat nəzəriyyəsi və Folklorşünaslıq ixtisasları üzrə elmlər doktoru və fəlsəfə doktoru müdafiəsi üçün nəzərdə tutulmuş ixtisaslaşmış Dissertasiya Şurasının üzvü təyin edilmişdir.
- Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 9 dekabr 2011-ci il tarixli (protokol №16-R) qərarı ilə ona Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrası üzrə professor elmi adı verilmişdir.

**2015** - Azərbaycan Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanı ilə təltif olunmuşdur.
- Azərbaycan Dövlət Pedaqoji Universiteti Həmkarlar İttifaqı Komitəsinin fəxri fərmanı ilə təltif olunmuşdur.
- Ali Attestasiya Komissiyasının qərarı ilə AMEA Nizami adına Ədəbiyyat İnstitutu nəzdindəki Azərbaycan ədəbiyyatı, Türk xalqları ədəbiyyatı, Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı ixtisasları üzrə elmlər doktoru və fəlsəfə doktoru müdafiəsi üçün

nəzərdə tutulmuş ixtisaslaşmış Dissertasiya Şurasının üzvü təyin edilmişdir.

**2016** - Azərbaycan Respublikası Təhsil Nazirliyinin uşaqlar üçün yazılan ən yaxşı əsərlər müsabiqəsində nəzm nominasiyası üzrə birinci mükafata layiq görülmüşdür.

**2019** **-** "Nağıl qapısı" kitabına görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafatına layiq görülmüşdür.

**2020** - Azərbaycan Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanı ilə təltif olunmuşdur.





# Görkəmli şəxsiyyətlər Rafiq Yusifoğlu haqqında

Rafiq, poemanı oxudum. Çox təsirli və səciyyəvi bir məsələdən bəhs edirsən. Müharibənin yaraları indi də göynəyir. Sən o ağır illəri görməsən də nəfəsini hiss edirsən. Poema göstərir ki, səndə şairlik istedadı var. Misraların çoxu axıcı və səlistdir. Söz seçməkdə az çətinlik çəkirsən.

**İsmayıl Şıxlı**,
*xalq yazıçısı*

Rafiq Yusifoğlunun "Qış" şeiri maraqlıdır. Müəllif özünəməxsus boyalarla, səmimi yumorla qışın portretini yaratmağa çalışır. Yaşından asılı olaraq hər kəsin qışı necə qəbul etdiyini poetik dillə təsvir edir, əsasən də buna nail olur:

Qış da bir qocadır, ancaq nədənsə
Onun qocalarla söhbəti tutmur.

**Məmməd Araz,**
*xalq şairi*

Rafiq Yusifoğlu Azərbaycan dilini çox gözəl bilən şairlərimizdəndir.

**Qabil**,
*xalq şairi*

Ədəbiyyatımızın bütün dövrlərini obyektiv təhlil etməyi bacaran namuslu adamlarımız da az deyil. Bu baxımdan mən yazıçı və alim Rafiq Yusifoğlunun "Azərbaycan poeması: axtarışlar və perspektivlər" kitabını lazımınca dəyərləndirirəm.

**Anar,**
*xalq yazıçısı*

İlk dəfə məktəbə qədəm basan Azərbaycan uşaqları Abbas Səhhətin, Abdulla Şaiqin şeirləri ilə birlikdə Rafiq Yusifoğlunun

da bir-birindən gözəl, mənalı şeirlərini oxuyur, əzbərləyirlər. Ədəbiyyata, şeirə-sənətə gedən yolun başlanğıcında onlara Rafiq Yusifoğlu poeziyası bələdçilik edir. Bu da təsadüfi deyildir. Bu gün Rafiq Yusifoğlu nəinki çağdaş uşaq ədəbiyyatımızın sayılıb-seçilən, görkəmli nümayəndələrindən biri, hətta cəsarətlə deyə bilərəm ki, birincisidir. Bu gün uşaq ədəbiyyatının yaranması, nəşri, tədqiqi və təbliği sahəsində Rafiq müəllimin xidmətləri çox böyükdür.

**Nizami Cəfərov,**
*akademik*

Rafiq Yusifoğlunun hər şeirində obrazlı, poetik deyimlər adamı heyrətləndirir.

**Zahid Xəlil**,
*filologiya üzrə elmlər doktoru, professor*

Rafiq Yusifoğlunun şeirlərində mənim xoşuma gələn təfəkkür aydınlığıdır. Fikri çılpaq şəkildə yox, poetik ifadələrlə, obrazlı dil ilə, həm də asan başa düşüləcək bir şəkildə oxucuya çatdırmaq onun şeir yaradıcılığının məziyyətləri kimi yadda qalır.

**Nəriman Həsənzadə**,
*xalq şairi*

Rafiq Yusifoğlunun alimlik fəaliyyəti ilə tam tanış deyiləm, ancaq poeziyasını sevirəm. Uşaqlar üçün də, böyüklər üçün də çox gözəl yazır, çox gözəl nəğmələri var.

**Hüseyn Abbaszadə**,
*xalq yazıçısı*

İstedadlı şair Rafiq Yusifoğlu, necə deyərlər, babasına çəkmişdir. Nuşirəvan müəllimin ("İstot" təxəllüslü Mollanəsrəddinçi şair Nuşirəvan Kərimovun – Redaktor) yandırdığı poeziya ocağının kül altda qalan közünü sönməyə qoymamışdır.

**Qasım Qasımzadə**,
*şair-ədəbiyyatşünas*





Rafiq Yusifoğlu elə daş-qaşdı ki, bir küncü ədəbiyyatşünaslıqdı, bir küncü şairlikdi, bir küncü nasirlikdi... Bu sakit, təmkinli adamın canında bunların hamısı cəm olub. Hardasa üç-dörd insan lazımdı ki, Rafiq kimi alim olaydı, daha heç nə yazmayaydı, Rafiq kimi şair olaydı, daha heç nə yazmayaydı...

**Fikrət Sadıq,**
*şair, Əməkdar incəsənət xadimi*

Rafiqdən Səhhət ətri, Şaiq ətri, Səməd Vurğun ətri gəlir. Xeyirxahlıqla, qayğıkeşliklə doludur onun canı.

**İlyas Tapdıq,**
*şair*

Adi daş, çiçək, yağış, ağac, bulaq, quş, şəlalə Rafiq Yusifoğlunun poeziyasında sehrli bir dona bürünür, adilikdən çıxıb mənalanır, canlanır, görünür, dil açıb danışır.

**Tofiq Mahmud,**
*şair*

Rafiq Yusifoğlunun uşaqlar üçün yazıb çap etdirdiyi şeirlər həmişə diqqətimi cəlb etmişdir. O, hər şeydən əvvəl, uşaq aləmini həssaslıqla müşahidə edir və hər bir şeirində ürəyə yatımlı müxtəlif kəşflər edir. Bəs görəsən böyüklər üçün yazdığı şeirlərdə də Rafiq öz sözünü yeni poetik vüsətlə deyə bilirmi? Özlüyümdə bu sualla "Yazıçı" nəşriyyatının nəşr etdiyi "Ocaq yeri" kitabını vərəqlədim. Axırıncı şeiri oxuyub qurtarandan sonra bu qənaətə gəldim ki, bəli, Rafiq böyüklər üçün olan yazılarında da özünə sadiqdir.

**Hikmət Ziya**,
*şair, əməkdar incəsənət xadimi*

Təbiətin təsvir və tərənnüm fonunda sosial məsələlərdən danışmaq, özünün fərdi vətəndaşlıq mövqeyini ifadə etmək üsulu Rafiq Yusifoğlunun şeirlərində nəzərə çarpan keyfiyyətdir.

Əksəriyyəti lirik ovqat üzərində köklənən bu şeirlərin çoxu

gerçəkliyin obrazlı dərki, onun fərdi poetik təfəkkürdə "özünün-küləşdirmək" keyfiyyəti ilə seçilir. Onlarda insan qəlbinin ən incə, şəffaf duyğuları sıralanır. Səmimilik və konkretlik, doğma yurda, vətənə, xalqa, millətə, insana – bəşərə məhəbbətin poetik şahidlərinə çevrilir…

**Zaman Əsgərli,**
*professor*

Rafiq Yusifoğlu "Qəm karvanı" poemasında eşqdən və Füzuli dərdindən canında olan yanğıları ulu şairimizə yüksək məhəbbətlə dilə gətirməyə çalışır. Hər addımında, hər dikəlişində, hər söylənişində Rafiq Yusifoğlunun başının üstündə Füzuli zirvəsinin zəhmi hiss olunur.

**Məmməd Aslan**,
*şair*

Rafiq Yusifoğlunun bacarığı ondadır ki, o, "quru" mövzularda da bədii cizgilər tapır. Onun belə əsərlər yazması uşaq poeziyamıza yeni ruh, yeni nəfəs, yeni üslub gətirir.

**Ağa Laçınlı**,
*şair*

Mən həmişə Rafiq Yusifoğlunu sözlərinə oxşayan görmüşəm: özü də sözləri kimi sakit, utancaq, hay-küyü sevməyən, isti və yapışıqlı... Rafiq Yusifoğlunun şeirləri oxucu ilə dil tapmağı, mehr-ülfət bağlamağı bacarır, çünki o, könül söhbəti eləyir...

**Məhərrəm Qasımlı**,
*professor*

Rafiq Yusifoğlu poeziyasının dili səlis, şirin və canlıdır, onun poeziyasında obrazlılığa xidmət etməyən, emosionallıq və ekspressivlik yaratmayan dil vahidi tapmaq çətindir. Bu da səbəbsiz deyil: birincisi, ona görə ki, şair özünəqədərki şifahi və yazılı ədəbiyyatımızın incəliklərini yaxşı mənimsəyib; ikincisi, özünün də dediyi kimi: "...Səməd Vurğun, Şəhriyar, Məmməd Araz və





başqa bu kimi sənətkarlarımızın əsərlərində Azərbaycan dili dağ şəlaləsi kimi çağlayır". Heç şübhəsiz ki, bu zənginlik şairin poeziyasından da yan ötməyib; üçüncüsü Rafiq Yusifoğlu filologiya üzrə elmlər doktoru, professordur. Bu da onun dilinin səlisliyinə istər-istəməz müəyyən qədər təsir etmişdir; dördüncüsü, şairin dilindəki kamillik onun poetik təfəkkürünün zənginliyi ilə bağlıdır. Rafiq Yusifoğlu poeziyası geniş və sistemli şəkildə tədqiqini gözləyir.

**Əzizxan Tanrıverdi,**
*filologiya üzrə elmlər doktoru, professor*

Rafiq Yusifoğlu poeziyası ilə tanış olduqda oxucu onun zəngin poetik irsinin həm kəmiyyət, həm də keyfiyyət göstəricisi qarşısında heyrətini gizlədə bilmir. ... Vətən timsalında Qubadlı dağlarının qaya-süxur möhkəmliyini, bu torpağın su-hava saflığını, insanların əqidə bütövlüyünü şeirlərinə hopduran Rafiq Yusifoğlunun poetik "mən"i Gülhana çevrilən böyük Nazim Hikmətin və Heydərbaba dağı timsalında Azərbaycan ruhunu ifadə edən dahi Şəhriyarın poetik "mən"ləri ilə paralelləşə bilir.

**Elman Quliyev,**
*filologiya üzrə elmlər doktoru, professor*

Rafiq Yusifoğlu gündəlik həyatında təbiətən emosional olduğu kimi, ədəbi-bədii yaradıcılığında da duyğusaldır. Şeirlərində gözəlliyə, uğurlu bədii detala, estetik tapıntıya özü heyrətləndiyi kimi, oxucunu da heyrətləndirir, şərə, naqisliyə, yalana, haqsızlığa qarşı etirazını gizlətmir. Bədii sözün qüdrətinə inanır, poetik dilin, polifonik ədəbi-estetık və fəlsəfi təmayüllərin ifadə imkanlarının intəhasızlığını bilir, bədii mətnin strukturu və təqdimatında bütövlüyə çalışır.

**Əsgər Rəsulov,**
*filologiya üzrə elmlər doktoru, professor*

Rafiq Yusifoğlu - ədəbi prosesdə, məşğul olduğu elm sahəsində, mətbuat aləmində kifayət qədər tanınmış, yaradıcılığı ilə

çoxdan etiraf olunmuş şair, ədəbiyyatşünas və publisistdir. Rafiq Yusifoğlu ciddi elm adamıdır, elmlər doktorudur, professordur. Onun Azərbaycan poemasının inkişaf problemlərinə aid tədqiqatı bu mövzuda ən sanballı bir elmi əsərdir, "Ədəbiyyat nəzəriyyəsi" dərsliyi, monoqrafiyaları və müasir ədəbi proseslə bağlı qələmə aldığı onlarla məqalələri də onu bir tənqidçi və ədəbiyyatşünas kimi tanıdıb. İbtidai siniflərin bir çox dərsliklərinin müəllifidir və müasir uşaq ədəbiyyatının inkişafında da Rafiqin xidmətlərini unutmaq olmaz.

**Vaqif Yusifli,**
*tənqidçi, filologiya üzrə elmlər doktoru*

Rafiq Yusifoğlu təkcə poeziyası, elmi araşdırmaları, "Göyərçin" jurnalındakı fəaliyyəti ilə adını xalqımızın tarixinə yazmayıbdır. Onun canlı fəaliyyətinin mühüm bir hissəsi universitet auditoriyası ilə bağlıdır.

**Mahmud Allahmanlı,**
*filologiya üzrə elmlər doktoru, professor*

Elə şair var ki, onun şeirində bir poetik ifadə tapanda sevinirsən. Rafiq Yusifoğlunun şeirləri isə başdan-ayağa poetizmlə doludur. Şeirinin hər misrasında poetizm nümunəsi, hər bəndində "diri söz" bolluğu Rafiq Yusifoğluna məxsus ən yüksək poetik keyfiyyətdir.

**Vaqif Qurbanov,**
*pedaqoji elmlər doktoru, professor*

Ədəbiyyatşünas-alim, tərcüməçi, nasir, şair, pedaqoq, jurnalist və nəhayət, uşaqlar üçün çap edilən "Göyərçin" jurnalının baş redaktoru olan Rafiq Yusifoğlu bəlkə də hər gün gördüyümüz, səmimiyyətlə salamlaşdığımız, amma böyük poetik dünyasından ətraflı məlumatımız olmayan istedadlı söz sahibidir. Onun ömür karvanının yükü poeziya inciləridir. Həqiqətən də, Rafiq Yusifoğlunun qələmindən çıxan hər bir şeir nümunədir, dərin poetik məzmuna, sənətkarlıq xüsusiyyətlərinə malikdir.





**Flora Xəlilzadə,**
*şair-jurnalist*

Rafiq Yusifoğlu son illərdə uşaq ədəbiyyatımızın inkişafına öz töhfəsini verən, məhsuldar fəaliyyəti ilə ədəbi tənqidin, geniş oxucu kütləsinin diqqətini cəlb etmiş istedadlı sənətkarlardandır.

**Bilal Həsənli**,
*ədəbiyyatşünas*

Rafiq Yusifoğlunun şeirlərində Azərbaycan türkcəsinin şirinliyi var. Misralar axıcı, rəvan, kəlmələr, ifadələr aydın, anlaşıqlı və yerli-yerində. Hiss olunur ki, o, uşaqlıqdan xalq ədəbiyyatı çevrəsində, folklor mühitində böyüyüb, boya-başa çatıb. İndi işğal altında gözləri yol çəkən Qubadlının el-oba adətləri, etnoqrafik dəyərləri, folklor mühiti Rafiq Yusifoğlunun şair, alim kimi yetişməyində təbii ki, az rol oynamayıb.

**Adil Cəmil**,
*şair, filologiya üzrə fəlsəfə doktoru*

Rafiq Yusifoğlu – bu sakit, mülayim, mədəni insan, həm də uşaqların sevimli şairidir. Müəllifin neçə-neçə şeirlər kitabı məktəblilərin sevə-sevə oxuduqları kitablardandır. Onun, həqiqətən dəyərli şeir kitabları nəşr olunmuşdur. Ancaq məhz "Uşaq ədəbiyyatı" kitabında Rafiq Yusifoğlu özünü uşaq ədəbiyyatının kamil bilicisi kimi tam aydın mövqeyi ilə təsdiq etmişdir.

**Əzizə Türkan Əhmədova,**
*yazıçı, filologiya üzrə fəlsəfə doktoru*

# Rafiq Yusifoğlu görkəmli şəxsiyyətlər haqqında

*Yüksək ədəbi zövqə, poetik duyuma malik olmadan, nəinki ədəbiyyatın, şeir sənətinin qanunauyğunluqlarını, eləcə də digər elmləri mükəmməl bilmədən, müqayisələr aparıb elmi nəticələr çıxarmaq qeyri mümkündür. Görünür* ***Xətib Təbrizi*** *məhz bunları nəzərdə tutduğu üçün bu qənaətə gəlmişdir ki, şeiri təhlil etmək onu yazmaqdan çətindir.*

***Nizaminin*** *nəinki əsərlərini oxumağa, həm də onun nəzəri-estetik görüşlərini öyrənməyə, ondan yaradıcı şəkildə bəhrələnməyə xüsusi ehtiyac duyulur. Çünki bu dahi sənətkarın elmi-nəzəri, ədəbi-fəlsəfi düşüncələri əsl sənətkarlıq məktəbidir.*

***Nəsimi*** *özü maraqlı, müəmmalı şəxsiyyət olduğu kimi, onun daxili dünyasının aynası olan şeirləri də sirlərlə, öz təbirincə desək, "əsrar"la doludur. Bu qüdrətli sənətkarın şeirlərinin zahiri tərəfindən çox, onların sətiraltı mənası zaman-zaman filosofları, ədəbiyyatşünasları düşündürmüşdür. Nəsimi adi sözə elə simvolik, eləcə də bədii don geyindirir ki, bununla da öz yaradıcılığını "sirlər xəzinəsi"nə döndərə bilir.*

***Axundov*** *fanatizmin düşməni olmuşdur, Allahın yox. Axundov təqlidin düşməni olmuşdur, Füzulinin yox.*

***Aşıq Ələsgər*** *yaradıcılığı təkcə mövzu baxımından deyil, həm də bədii sənətkarlıq nöqteyi-nəzərindən diqqəti cəlb edir. Onun bir-birindən cazibədar qoşmaları, gəraylıları özünəməxsus kompozisiyası – bədii quruluşu və rəngarəng sənətkarlıq komponentləri ilə diqqəti cəlb edir.*





***Həsən bəy Zərdabi*** *zəngin həyat təcrübəsi və elmi, intellekti, mükəmməl, çoxşaxəli biliyi sayəsində dərk etmişdir ki, millətin tərəqqisi naminə yeni nəslin təlim-tərbiyəsinə xüsusi diqqət yetirmək lazımdır. Bu məqsədlə o, uşaq ədəbiyyatının yaradılmasına böyük ehtiyac olduğunu duymuş, tərəqqipərvər ziyalıları bu işə həvəsləndirmiş, özü də bacardığını əsirgəməmişdir.*

*Soydaşlarını maarifləndirmək, yatanları qəflət yuxusundan ayıltmaq, millətini, vətənini tərəqqi etmiş xalqlar, ölkələr sırasında görmək arzusu* ***Cəlil Məmmədquluzadə*** *yaradıcılığının başlıca leytmotivini təşkil edir. Onun bütün əsərlərində: hekayələrində, povestlərində, pyeslərində, felyetonlarında, məqalələrində, məktublarında el dərdi çəkən bu qüdrətli sənətkarın ürək ağrılarını sezmək, qəlbinə axan göz yaşlarını görmək o qədər də çətin iş deyildir.*

*Milli mədəniyyətimizin görkəmli nümayəndəsi, peşəkar musiqi sənətimizin banisi, dahi bəstəkar, tanınmış ziyalı* ***Üzeyir Hacıbəylinin*** *ədəbi-bədii irsi yeni nəslin təlim-tərbiyəsində indi də mühüm rol oynamaqdadır. Amalı, məqsədi öz xalqını qabaqcıl millətlər sırasında görmək olan Üzeyir bəy bütün şüurlu həyatını soydaşlarımızın təhsilinə, elmi biliklərə yiyələnməsinə, onların mədəni səviyyəyə yüksəlməsinə, insanların mənəvi-əxlaqi tərəqqisinə həsr etmişdir.*

*Əgər* ***Cəfər Cabbarlı*** *yaradıcılığını qollu-budaqlı bir ağaca bənzətmək olsaydı, mən onun lirikasını gözə görünməyən, tor-*

*pağın altında qalan, lakin bu ağacın yaşaması üçün zəruri olan köklərə, zoğlara təşbeh edərdim…*

***Osman Sarıvəllinin** şeirlərində vətən torpağının ətri vardır. Xalqımızın qəhrəmanlıqlarla dolu həyatı onun əsərlərində məhəbbətlə tərənnüm olunur.*

*Osman müəllim uşaqları çox sevir, onların simasında xalqımızın gələcək qəhrəmanlarını görür. Şair gəncləri vətən üçün faydalı işlər görməyə səsləyir.*

*Görkəmli Azərbaycan şairi **Səməd Vurğunun** mükəmməl, rəngarəng bədii struktura, vəzn və qafiyə sisteminə, janr və sənətkarlıq xüsusiyyətlərinə malik şeirlərini, poemalarını, mənzum dramlarını oxuyanda aydınca hiss olunur ki, bü cür əsərləri yaradan insanın elmi-nəzəri səviyyəsi çox yüksək olmalıdır. O, həm zəngin folklor nümunələrindən, həm klassiklərimizin zəngin ədəbi irsindən, həm də dünya ədəbiyyatından yaradıcı şəkildə bəhrələnməyi bacarmasaydı, bu qədər rəngarəng, mükəmməl bədii struktura, yüksək sənətkarlıq məziyyətlərinə malik əsərlər də yarada bilməzdi.*

*Bədii ədəbiyyatın nəzəri problemləri ilə ciddi şəkildə məşğul olması **Mir Cəlal** müəllimin öz yaradıcılıq nümunələrinə də təsirsiz qalmamışdır. Onun qələmindən çıxan nəsr əsərlərini müxtəlif nəzəri problemlər istiqamətində araşdırmaya cəlb edəndə aydın şəkildə görünür ki, bu əsərlər təkcə yazıçı təxəyyülünün yox, həm də ona gizli şəkildə, daim nəzarət edən bir tədqiqatçı alim təfəkkürünün məhsuludur.*

***Mikayıl Müşfiq** adının təmizliyi, saflığı, istedadının işığı, nuru əsərlərinə hopmuşdur… Müşfiq poeziyasının nuru, işığı hələ*





*də şəfəq saçır. İllər ötsə də, o işıq öləziməyib. Müşfiqin həyat çırağını vaxtsız söndürsələr də, onun poeziyasının işığı yaşayır, neçə-neçə insan qəlbinin hicra guşələrinə işıq salır, onlarda sevgi, sevinc, həyat eşqi duyğularını oyadır…*

*Məzmun yeniliyi ilə obrazlı deyim tərzinin vəhdəti **Rəsul Rzanın** bütün yaradıcılıq nümunələrinin orijinallığını şərtləndirən amillər sırasındadır.*

*Hamı uşaq kimi doğulur, ancaq ömrünün ixtiyar çağında dünyadan uşaq kimi köçmək hər adama nəsib olmur. Azərbaycan uşaq poeziyasının ağbirçəyi **Xanımana Əlibəyli** Ulu Yaradanın dərgahına mələk qanadında uçan belə xoşbəxt sənətkarlardandır.*

*Bütün şüurlu həyatını, ömrünü ədəbiyyatın tədqiqinə, təbliğinə həsr edən nüfuzlu ziyalılarımızdan, ədəbiyyatşünaslarımızdan biri olan **Əhəd Hüseynov** çoxdan dünyasını dəyişsə də, xatirəsi onu tanıyanların, sevənlərin, çoxsaylı tələbələrinin, doğmalarının, əzizlərinin yaddaşından silinmir.*

***Qasım Qaımzadənin** şeirlərini oxuyanda vətəni, xalqı dərin məhəbbətlə sevən, zəmanəsi ilə möhkəm təmasda olan xeyirxah, təvazökar bir şairin ürək çırpıntılarını eşidirik.*

***Teymur Elçin** poeziyasının məziyyətlərini şərtləndirən ən başlıca amil də onun uşaqlara olan məhəbbətidir. Uşaqların səviyyəsinə, maraq dairəsinə uyğun əsərlər yazan Teymur müəllim uşağı uşaq yerinə qoymur, adi bir hadisənin, süjetin arxasında son dərəcə mühüm əxlaqi problemlər qoyur və onun bədii həllini verməyə nail olur.*

*İnsanlığı zaman-zaman düşündürən elə bir problem yoxdur ki, **Bəxtiyar Vahabzadənin** poeziyasında bu və ya digər şəkildə öz əksini tapmamış olsun. Onun şeirləri, nəğmələri indi də dillər əzbəridir, insanları saf məhəbbətə, vətənpərvərliyə, düzlüyə, ləyaqətə, xalq işi uğrunda mübarizəyə, əslini-nəslini unutmamağa, mənəvi dünyamızın, əxlaqımızın, dilimizin, dinimizin keşiyində ayıq-sayıq dayanmağa, əsl insan kimi yaşayıb-yaratmağa səsləyir. Özü də bütün bunların yüksək peşəkarlıqla bədii əksi şairin fikir və düşüncələrinin təsir gücünü qat-qat artırır. Elə buna görə də Bəxtiyar Vahabzadəni bütün zamanların şairi hesab etmək olar.*

***Qabilin** poeziyasının ən birinci məziyyətini şərtləndirən amil səmimiyyətdir. O, çox sadə, duzlu, məzəli, sözü üzə deməkdən çəkinməyən, mənəviyyatca təmiz bir insan idi. Bu tanınmış şairin müxtəlif səpkili şeirləri, poemaları onun daxili dünyasının poetik aynasıdır.*

*Öz fikir və mülahizələrini, həyata, cəmiyyətə münasibətini sadə adamların həyatı timsalında təsvir etmək **Çingiz Aytmatovun** ədəbi üslubu üçün çox səciyyəvidir.*

***Hikmət Ziyanın** təmsillərində xalq hikmətinin ziyası vardır.*

*Rəngarəng mövzulu bütün məqalələrində, çıxışlarında **Bəkir Nəbiyevin** ədəbiyyata, mədəniyyətə, cəmiyyətdəki çeşidli proseslərə, hadisələrə vətənpərvər ziyalı, ictimai xadim mövqeyi ilə qiymət verilməsi razılıq hissi doğurur.*

***Tofiq Mahmudun** poeziyası elə bil ki, işıqla, sevgi ilə, həyat eşqi ilə, gözəllik duyğuları ilə yoğrulub. Bu da təsadüfi deyildir.*





*Çünki onun özü də son dərəcə işıqlı, nurlu, həssas, kövrək, qayğıkeş, mehriban, səmimi bir insan idi.*

***Tofiq Bayram** gözəl şair, tərcüməçi olmaqdan başqa, həm də ədəbiyyatımızın, mədəniyyətimizin ayıq-sayıq keşikçisi idi...*

***Yaşar Qarayevin** əsərlərini oxuyanda onun təhlil mədəniyyəti, bədii ədəbiyyatı dəyərləndirmə ustalığı, fikrini obrazlı şəkildə ifadə etmək bacarığı həmişə məni heyran qoyub və qoymaqdadır. Infarkt keçirəndən sonra onun yazıb «Ədəbiyyat qəzeti»ndə çap etdirdiyi fəlsəfi düşüncələrin təsiri indi də azalmayıb. Çünki dünyanın hər üzünü görən Yaşar müəllim o zaman müdrikliyin zirvəsində idi… Əslində Yaşar müəllim elə həmişə müdrik olub: cavanlığında da, ömrünün ixtiyar çağında da… gördüm… Onun gülüşünün də sətiraltı mənası var idi elə bil…*

*Yaşar Qarayev istedadının çiçəkləndiyi bir vaxtda dünyasını dəyişsə də, ədəbiyyatşünaslıq dünyasında onun şərəfli və əbədi bir yeri var. Hələ neçə-neçə ədəbiyyatşünaslar nəsli onun əsərlərini oxuya-oxuya özlərini tapacaq, elmimizə Yaşar müəllimin adına layiq töhfələr verəcəklər… Tam əminliklə deyə bilərəm ki, Yaşar Qarayevin adı ədəbiyyatşünaslıq elmimizin klassikləri sırasında daim yaşayacaqdır.*

***Aristotelin** zəngin ədəbi irsi öyrənildikcə öyrənilən, yeni-yeni cəhətləri üzə çıxarılan, yeni fikir və mülahizələr irəli sürməyə çalışan alim və yazıçıların tez-tez müraciət etdiyi tükənməz bir mənəvi xəzinədir.*

*Dünya ədəbi-nəzəri fikrinin ən sayılıb-seçilən nümunələrindən biri də **Bualonun** "Poeziya sənəti" əsəridir. "Poeziya sənəti" Fransada klassisizm cərəyanının yaranıb inkişaf etdiyi*

*bir dövrdə – XVII əsrdə yazılsa da, öz elmi və praktik dəyərini indi də qoruyub saxlamaqdadır. Bu əsərdə irəli sürülən nəzəri mülahizələrdən dünyanın əksər ölkələrində istər sənət adamları, istərsə də ədəbiyyatşünaslar, estetiklər zaman-zaman bəhrələnmiş, gözəl sənət və tədqiqat əsərləri yaratmışlar.*

***Jül Renarın** istər həyat, təbiət hadisələri, istər bədii sənətkarlıq məsələləri haqqında fikir və mülahizələri o qədər maraqlıdır ki, adam onun "Gündəliy"ini dönə-dönə vərəqləyib oxumaqdan yorulmur.*

*"Amerika faciəsi" Amerika ədəbiyyatının magistral istiqamətini göstərən bir əsər kimi dəyərlidir. **Teodor Drayzer** Amerika ədəbiyyatının şöhrətini qaldıran və onun üfüqlərini genişləndirən bir sənətkardır. O, Amerika ədəbiyyatına həyatın canlı nəfəsini gətirmişdir.*

***Heminquey** yaradıcılığını oxucuya sevdirən, onun əsərlərini cazibədar edən ən mühüm cəhət gərgin döyüş anlarında belə qəhrəmanların ürəyində baş qaldıran həyat eşqidir. Əgər bu olmasa, döyüşlərə, müharibəyə nifrət edən oxucular qanlı-qadalı hadisələrin təsvirinə də nifrət edərlər. Ancaq Heminquey yaradıcılığında döyüş səhnələrinin təsviri məqsəd yox, vasitədir. Çətin şəraitdə qəhrəmanların daxilindəki hissləri üzə çıxaran qüdrətli bir vasitə. Ernest Heminqueyin sənət zirvəsi çox yüksəkdir və bu ucalıq insan taleyinin dərinliyindən qaynaqlanır...*

*Bir qədər dərindən düşünəndə aydın olur ki, Meri Poppins elə **Pamela Treversin** özüdür. Öz uşaqları olmayan yazıçının bir uşağı övladlığa götürüb tərbiyə eləməsi məlum faktdır. Ancaq bu, məsələnin bir tərəfidir. Əsas məsələ isə ondadır ki, Pamela*





*Trevers bütün uşaqları dərin məhəbbətlə sevmiş, onların xoşbəxt olmasını arzulamışdır. Elə buna görə də bütün dünyada onu sevir, əsərlərini həyəcanla, məhəbbətlə oxuyurlar...*

*Müasir Ukrayna ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri də **İvan Draçdır**. Onun əsərləri bir sıra dünya xalqlarının dilinə tərcümə olunmuş, poetik düşüncələri oxucuların rəğbətini qazanmışdır. Orijinal yaradıcılıq üslubuna malik olması, insanlığı narahat edən bir sıra problemlərin bədii həllini öz əsərlərində verməyə çalışması İvan Draçın poeziyasının müvəffəqiyyətlərini şərtləndirən əsas cəhətlərdəndir.*

***Paulo Koelyo** dönə-dönə vurğulayır ki, öz taleyinin sahibinə çevrilmək üçün inadla, əzmlə mübarizə aparmaq hər bir insanın ən başlıca vəzifəsi, borcudur. Insanın daxilindəki sehrli, özünün də baş aça bilmədiyi möcüzəli bir qüvvə onun həyat uğrunda, arzularının gerçəkləşməsi, səadətə, xoşbəxtliyə qovuşması yolunda apardığı mübarizənin başlıca hərəkətverici qüvvəsidir və insanın fərdi taleyi bəşəriyyətin taleyi ilə sıx surətdə bağlıdır, onun ayrılmaz tərkib hissəsidir. Insan bir şeyi sidq ürəklə istəyəndə həmin gözəgörünməz sehrli qüvvə ona arzularını reallaşdırmaq yolunda yardımçı olur, kömək göstərir.*

## Rafiq Yusifoğlunun ədəbiyyat, elm, sənət haqqında fikir və mülahizələri

Bu danılmaz həqiqətdir ki, mənim yaradıcılığımın şah damarı poeziyadır. Ədəbiyyatşünas Rafiq Yusifoğlu da, tərcüməçi Rafiq Yusifoğlu da, jurnalist Rafiq Yusifoğlu da, müəllim Rafiq Yusifoğlu da əslində şair Rafiq Yusifoğlunun köməkçiləridir. Yaradıcılıq prosesində şair Rafiq Yusifoğluna həm ədəbiyyatşünas – tənqidçi, həm tərcüməçi, həm jurnalist, həm də müəllim Rafiq Yusifoğlu nəzarət edir. Şairlik isə öz növbəsində digər sahələrdəki fəaliyyətimə yardımçı olur. Özü də bir qədər dərindən baxsan, mənim yaradıcılığımdakı çoxşaxəlilik bir-birinə yad sahələr deyil, hamısı ümumi ədəbiyyat sarayının bir-birini tamamlayan balaca hücrələridi. Mən bütün ömrümü, həyatımı şeirə, sənətə, ədəbiyyata, onun təbliğinə həsr etmişəm. Hərdən mənə elə gəlir ki, ədəbiyyat mənim Leylimdi, mən isə onun Məcnunu…

Sözlə ən çox oynayan, onun nazını çəkən şairlərdir. Şairin gözlərinə gözəl görünən kimi, söz onun qəlbində ulduzlar kimi sayrışır. Şair müəyyən mənada söz ağacına bənzəyir. Həyat hadisələrini sənətkarlıq süzgəcindən keçirib bədii əsərə çevirən şairin çiçəkdən çiçəyə qonub bal çəkən arıya da bənzəri var.

Söz hikmət sarayının kərpicləridir. Xalqımızın keşməkeşli tarixi də sözlər vasitəsi ilə bizə yadigar qalıb. Hikmətli söz onu yaradanın heykəli sayılmalıdır.

Bədii əsərdə təsvir olunan həyat hadisələri, müəllifin ideyası, təsvir obyektinə, mövzuya münasibəti, obrazların hərəkət və davranışları, forma elementləri bir-biri ilə elə qaynayıb qarışır ki,





bunlardan hansının əsas, hansının ikinci dərəcəli olmasını söyləməyə heç lüzum da yoxdur. Canlı orqanizmdə funksiyasız üzv tapmaq mümkün olmadığı kimi, bədii əsərdə də əhəmiyyətsiz, heç bir ədəbi missiyanı yerinə yetirməyən sənətkarlıq komponenti olmamalıdır.

Sənət əsərlərində məcazlardan, bədii təsvir və ifadə vasitələrindən, müxtəlif bədii missiyanı yerinə yetirən rəngarəng poetik fiqurlardan istifadə edildiyi üçün məna çox zaman sözün alt qatında olur.

Obrazlılıq bədii ədəbiyyatın cövhəri, bədiiliyin əsas meyarıdır. Məhz obrazlı deyim tərzi sənət əsərinə ecazkar bir don geyindirir. Söz obrazlı olanda gözəlləşir, daha da cazibədar görünür. Obrazlı deyim, bədii söz ilahi bir qüdrətə malikdir. Ümumi söz ədəbiyyatı ilahi sənət taxtından yerə çırpır, onu adi, yorucu danışığa, söz-söhbətə çevirir. Öz sözünü obrazlı deyə bilməyən şairin, yazıçının adi adamlardan nə fərqi ola bilər? Hər şeyi ümumi sözlərlə demək mümkün olsaydı, heç yazıçıya, şairə ehtiyac da qalmazdı.

Uğurlu bədii detal sözçülükdən, uzun-uzadı müəllif xarakteristikasından yaxa qurtarmaq, lakonizmə nail olmaq vasitəsidir. Bəzən sənətkar iki-üç səhifəlik təsvirlə demək istədiyi sözü bir xarakterik detalla ifadə edə bilir.

Doğrudan da, əsərdə bədii detal Arximedin istinad nöqtəsi kimi bir şeydir. Yazıçı bu istinad nöqtəsini tapan kimi onun vasitəsi ilə keşməkeşli bir epoxanın real mənzərələrini yaratmağa, xarakterləri açmağa, öz əsas ideyasını, bədii məramını ifadə etməyə nail olur.

*"Ədəbiyyatşünaslığın əsasları"*

Ədəbi-nəzəri fikir bədii əsərin ideyası, məzmun və forması, onun strukturu, süjet və kompozisiyası, obrazlar sistemi, rəngarəng sənətkarlıq komponentləri, bədii təsvir və ifadə vasitələri, dili, eləcə də həyatı nə şəkildə əks etdirmənin prinsipləri haqqında düşüncələr sistemidir və o, müxtəlif mərhələlər keçərək bugünümüzə qədər gəlib çıxmışdır. Ədəbi-nəzəri fikir əsrlərdən bəridir ki, bədii əsər necə olmalıdır sualına cavab axtarır və bu axtarışlar indi də davam etməkdədir.

*"Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri"*

Tarixi abidələr çoxdur və onları qoruyub saxlamaq, gələcək nəsillərə təhvil vermək son dərəcə vacib məsələdir. Ancaq bu danılmaz həqiqətdir ki, hətta ən möhtəşəm qalanı belə bircə anın içində məhv eləmək, izini-tozunu yer üzündən silmək asan işdir. Lakin elə abidələr də var ki, onları yerlə yeksan etmək sadəcə qeyri-mümkündür. Çünki bu abidələrin özülü də, divarı da, hörgüləri də, döşəməsi, tavanı da güllə batmaz, qılınc kəsməz, bomba partlatmaz sözdən ibarətdir. Canlılardan canlı olan sözün canını almaq sadəcə mümkünsüzdür. Sözü məhv etmək cəhdi yeni-yeni söz-söhbət predmetinə çevrilir. Söz elə bir yeddi başlı sehrli əjdahaya bənzəyir ki, onun hər başını kəsəndə yerindən neçə-neçə başlar əmələ gəlir və bu, həndəsi silsilə ilə artmaqda davam eləyir. Sözü məhv eləmək üçün gərək yer üzündə olan bütün insanları məhv eləyəsən ki, bu da sadəcə olaraq təsəvvürə gəlmir. Ona görə ki, sözü də, insanı da Ulu Allah yaratmışdır. Allahın yaratdığını isə Allahın özündən başqa heç kəs məhv eləyə bilməz…

Sözlər söndürmək mümkün olmayan məna ocağının közləridir. Sözlərin sığındığı kitabları zaman-zaman yandırıb məhv eləsələr də, onların içindəki sözlər insanların yaddaşında, hafizəsində sığınacaq tapıb yenidən həyata vəsiqə almış, nəsillərdən-





nəsillərə yadigar qalmışdır. Sözün keçmişdən üzü gələcəyə gedən karvanının qarşısını kəsmək hələ heç bir fatehə nəsib olmayıb və olmayacaq da…

Şeiri təhlil etmək, dəyərləndirmək, incələmək üçün incə ruhlu, poetik duyumlu ədəbiyyatşünaslar lazımdır. Bu olmayanda yüksək peşəkarlıq, nəzəri hazırlıq belə köməyə gəlmir. Şeir araşdırıcısı hər sözün alt qatını, sətiraltı mənasını görməyi, duymağı bacarmalıdır. Yaxşı şeirlə miyanə şeiri, bədii sözlə adi sözü bir-birindən seçməyi bacarmayanların poetik əsərləri araşdırmaq istəyi Don-Kixotun yel dəyirmanı ilə vuruşması kimi bir şeydir.

Mayası halallıqla yoğrulan əsl şeirdə haqqın nuru var. Bu mənada şeir bəşəriyyətə yol göstərən iman nuru, iman işığıdır. İşıq istəyən isə daim yanmalıdır. Çünki yanğı yoxdursa, işıq da yoxdur. Günəş yanır, işıq saçır, şam yanır, işıq saçır, ürək yanmasa, işıqlı şeir də yaranmaz…

Mən nə vaxtsa bədii sözü məna ocağının közlərinə bənzətmişəm. Doğrudan da, bədii söz olmadan üşüyən oxucunu isidən, onun ürəyində yaşamaq, sevib-sevilmək, gözəllikdən zövq almaq eşqi oyadan gözəl sənət əsərləri təsəvvür eləyə bilmirəm.

